**Kitablar, rəylər**

**ƏSMƏD MUXTAROVA**
*Bakı Dövlət Universitetinin*
*“Türk xalqları tarixi” kafedrasının müdiri,*
*tarix elmləri doktoru, professor*
**asmadmukhtarova@bsu.edu.az**

**SEYFƏDDİN RZASOY**
*AMEA Folklor İnstitutu Mifologiya şöbəsinin müdiri,*
*filologiya elmlər doktoru, professor*
**seyfeddin_rzasoy@mail.ru**

# ÜMUMTÜRK TARİXŞÜNASLIĞINA QİYMƏTLİ TÖHFƏ

DOI: https://doi.org/10.36719/2708-065X/106/259-263




Bu yaxınlarda təkcə Azərbaycan tarixşünaslığında deyil, eləcə də ümumtürk tarixşünaslıq elmində fundamental hadisə sayıla biləcək bir nəşr işıq üzü gördü. *Tarix üzrə fəlsəfə doktoru, Azərbaycan Dövlət Pedaqoji Universitetinin dos.v.i.e Taleh Vəzir oğlu Cəfərovun 2 cildlik “Türk xalqları və dövlətlərinin tarixi” dərsliyi (I cild. Bakı: Azərnəşr, 2024, 604 s.; II cild. Bakı: Azərnəşr, 2024, 348 s.)* tələbələrin və ümumən tarixlə maraqlananların istifadəsinə verildi.

Milli Məclisin üzvü, maarifçilik layihələrinin gerçəkləşməsinə daim yardım edən Cavanşir Feyziyevin maliyyə dəstəyi ilə yüksək poliqrafik keyfiyyətdə çap olunmuş ikicildliyin elmi redaktoru prof. Sevinc Əliyeva, rəyçiləri prof. Əsməd Muxtarova, prof. Osman Karatay, dos. Qabil Bəşirov, dos. Bəhman Ağayevdir.

Zəngin tarixi qaynaqlar, çoxsaylı elmi ədəbiyyatlar əsasında yazılmış “Türk xalqları və dövlətlərinin tarixi” ikicildliyi həm *tarixi zaman xronologiyası* (türk etnosunun etnik-mədəni nüvədən təşəkkül edərək günümüzədək davam edən *diaxron inkişaf modeli*), həm də tarixi-coğrafi strukturlaşma dinamikası (türk etnosunun etnik-mədəni substratdan zamanla aktual üzvlənmə keçirmək yolu ilə müxtəlif türk xalqlarına diferensiasiyasını nəzərdə tutan *sinxron inkişaf modeli*) baxımından son dərəcə nəhəng tarixi zaman reallıqlarını əhatə edir. Bu cəhətdən, qarşısına qoyulan hədəfi türk etnosunun tarixi və siyasi özünütəşkil modelləri olan əsərin zaman ritorikası “nüvə”dən, başqa sözlə, türk xalqlarının törəndiyi etnogenetik substratını təşkil edən “ocaq”dan başlanan və günümüzə qədər davam edən “Türk tarixi”dir.

Saysız tarixi faktların həm tarixi-xronoloji model, həm də pedaqoji təqdimat modelində sistemləşdirildiyi ikicildliyin elmi və pedaqoji məziyyətləri çoxdur. T.Cəfərov əsəri tarixşünaslıqda mövcud olan mütərəqqi ənənələrdən istifadə etməklə yanaşı, həm də müasir tarixçilik texnologiyalarının tətbiqi ilə yazmışdır. Müəllifin mövcud həcmdə saysız-hesabsız faktları və nəzəri-metodoloji faktorları dərslik formatında modelləşdirməsi ondan, sözün həqiqi mənasında, dərin istedad və tarixçi intuisiyası ilə yanaşı, ağır və gərgin əməyə dözmək qabiliyyəti də tələb etmişdir. Bu cəhətdən, ortada olan “məhsul”, ən azı, çoxillik elmi-pedaqoji təcrübənin də nəticəsi olmaqla fundamental hadisədir.

T.Cəfərovun əsərinin ilkin milli-emosional məziyyəti onun adı ilə bağlıdır. Müstəqillikdən sonra “türk” adı ilə bağlı hər cür elmi janra aid əsərlərin bolluğuna öyrəşmiş müasir nəsildən fərqli olaraq yaşlı nəsil üçün vaxtilə belə bir məzmunda “Türk xalqları və dövlətlərinin tarixi” adlı bir əsərin nə vaxtsa çap ediləcəyini xəyal etmək belə çətin idi. Əlbəttə, sovet dövründə türk xalqlarının tarixi ilə bağlı çoxlu əsərlər var idi. Ancaq onların, demək olar ki, hamısı, “türk tarixi yox”, “antitürk ta-

rixi" idi. Çünki bu "əsərlər" hamısı sovet tarix ideoloqlarının müəyyənləşdirdiyi "türk tarixi" sxemləri ("quraşdırmaları") əsasında yazılmaqla türk xalqlarının etnik konsolidasiyasına deyil, onların parçalanmasına xidmət edir və bu əsərlər əsasında "tərbiyə edilən" türk xalqlarının şüuruna velikorus şovinizminin maraqlarına xidmət edən və türk etnik-mədəni kimliyini alt şüur səviyyəsində dağıdan, məhv edən subliminal ideyalar ötürülürdü.

37-ci ilin qanlı repressiyaları ilə formalaşdırılan "türk tarixçilik elminin" Azərbaycan səhifəsi, bu təqdimat-resenziyadan əvvəl qeyd olunduğu kimi, "əslində, müstəmləkə epoxasının tarixi idi. İndi onu akademik-rəsmi təqdimatında etnokosmik mutasiyaların ifrat ifadəsi kimi tarixçilik elminə karikatura da adlandırmaq mümkündür. Mahiyyətində rus şovinizmi duran sovet tarixçilik elminin Azərbaycan tarixçiliyində yaratdığı eybəcərliklər yalnız yazılmış tarix kitablarının səhifələrində qalmayıb, eyni zamanda, milli mənəviyyat tariximizin də patoloji gerçəklərinə dönmüşdür. Bu cəhətdən, XX əsr Azərbaycan tarix elmi, əslində, tarixi həqiqətlə siyasi tarixin qeyri-bərabər mübarizə meydanı idi. Tarixçilər arasında gedən sonsuz mübahisələrin mahiyyətini bir məsələ – türk və qeyri-türk etnosların (başlıca olaraq irandilli etnik birliklərin) "Azərbaycan tarixi"ndə hansı konsepsiya əsasında "vahid bir xalqın" tarixi kimi sintezləşdirilməsi təşkil edirdi. Sovet dönəmində bu məsələ stalinizmin qanlı repressiya aparatının vasitəsi ilə paniranist mövqedən həll olunmuşdu. Başqa sözlə, "Azərbaycan tarixi" qeyri-türklərin (irandillilərin, yaxşı halda: məchuldillilərin) tarixi kimi başlanır, türklərin tarixi kimi tamamlanırdı. Paniranizm sovet imperiyasının dövlət maraqlarına xidmət edən və mahiyyətcə şovinist ideologiya idi. Bütün mahiyyəti çox əhəmiyyətli hissəsi müsəlman türklərdən ibarət olan SSRİ-də yaşayan türkləri hind-Arvopa kökənli rus nüvəsinin ətrafında birləşdirmək idi. Azərbaycanlıların türk olması, Anadolu türklərinə etnokosmik bağlılığı onları təbii olaraq Türkiyəyə meylləndirirdi. Bu isə "mərkəzdənqaçma" idi. Paniranizmin yeritdiyi konsepsiyaya görə, Azərbaycan xalqı öz kökləri etibarilə türk yox, irandillidir. O, sonradan – orta əsrlərdə səlcuqların gəlişi ilə türkləşmişdir. Təbii ki, qədim Azərbaycan ərazisində türkdilli etnoslarla yanaşı, qeyri-türkdillilər də olmuşdur. Paniranizmin türkləri Azərbaycan xalqının etnokosmik nüvəsindən silməyə çalışması onun maraqlarına xidmət etsə də, tarixşünaslıqda, insanların ictimai şüurunda çox böyük patologiyalar yaratmışdır (Bu, sovet ideologiyasının bəşəriyyət qarşısında işlədiyi bitib-tükənməyən cinayətlərdən biridir). Belə ki, Azərbaycanın etnogenezində etnokosmik substrat və etnokonsolidasiya modeli rolunu oynamış türklərin şovinistcəsinə silinməsinə edilən etiraz məhz paniranizmin təsiri altında elmi həqiqətin axtarışları ilə yanaşı, daha çox milli müqavimət mahiyyəti daşıyan "türkçülüyün" də formalaşmasına səbəb oldu. Keçən əsrin 30-cu illərində Azərbaycan ziyalılarının "pantürkist" adı altında kütləvi məhvi sonradan milli yaddaşa qanla yazıldı. Azərbaycan tarixşünaslığında bu gün belə davam edən "irançılıq" və "türkçülük" qarşıdurması obyektiv "Azərbaycan tarixi" konsepsiyasının və tarixin üzə çıxmasına daim mane oldu".

Sovet tarixçilik elminin bizə miras qalan bütün bu acı reallıqları fonunda T.Cəfərovun "Türk xalqları və dövlətlərinin tarixi" əsəri özünün aşağıdakı məziyyətləri ilə əlamətdardır:

– "Türk xalqları və dövlətlərinin tarixi" əsəri müstəqil Azərbaycan tarixşünaslığının məhsulu olmaqla tarixçilik şüurumuzun "müstəmləkə tarixçiliyi" "quraşdırmaları"nın aradan qaldırılması sahəsində böyük bir nailiyyətdir;

– Müəllif əsərdə etnogenez məsələlərinə azad tarixçilik düşüncəsi müstəvisində yanaşmaqla Azərbaycan tarixçilik şüurunda bizə sovet epoxasından miras qalmış patologiyaların aradan qaldırılması baxımından nümunə ola biləcək çalışmaya imza atmışdır.

– "Türk xalqları və dövlətlərinin tarixi" əsəri müstəmləkə epoxası tarixçiliyindən fərqli olaraq, Azərbaycan tarixşünaslığında bu gün də özünü göstərən "irançılıq-türkçülük" qarşıdurmasının əksinə olaraq, Azərbaycan tarix elminin obyektiv və ideoloji "quraşdırma"lardan azad konsepsiyalar əsasında inkişafına böyük töhfədir.

Tarix kitabları bütün hallarda ilkin qaynaqlar, mənbələr və məxəzlər deməkdir. Azərbaycan tarixçiliyində mövcud olan fundamental tarix əsərləri daha çox qaynaqlardakı bilgilərin xronoloji sistemləşdirmə üsuluna əsaslanır. Tarixçilik elminin "ana metodunu" təşkil edən bu üsul T.Cəfərovun da əsərinin əsas metodoloji ritorikasını təşkil edir. Və bu mənada, əsərdə xronoloji modelləşdirmə zamanı həm də dərslik janrının tələbləri də yüksək səviyyədə nəzərə alınmış, tələbələrin türk xalqları və dövlətlərinin tarixini xronoloji faktların düzümü modelində asanlıqla qavraması və yaddaşlaşmasının optimal pedaqoji metodlarından istifadə olunmuşdur.

Bir tarix dərsliyinin mövcud tarixşünaslığın nailiyyətləri əsasında yazılması faktoru T.Cəfərovun əsərinin ən böyük məziyyətini, bəlkə də, ilk baxışda "titanik zəhmət" amilinə müncər edə bilər. Lakin bizim nəzərimizdə, ikicildliyin ən böyük məziyyəti və onu təkcə Azərbaycan tarixçilik elmində deyil, həm də ümumtürk tarixşünaslığında fundamentallaşdıran fakt əsərdə türk xalqları və onların dövlətçilik tarixinin "harmoniya modelinin" tapılmasıdır.

Bu faktor nə ilə bağlıdır? Türklər sıradan bir xalq yox, Avrasiya materikinin siyasi-etnik tarixini yaradan və yaşadan əsas etnoslardan biridir. Avropa, Asiya və Şimali Afrika qitələrinin tarixini türk etnosundan kənarda təsəvvür etmək mümkün deyildir. Çünki bu tarixin əsas yaradıcılarından biri odur. Bu üç qitənin tarixi daim türklərlə nəfəs almışdır. Türk etnosu tarixən təbiətin və mədəniyyətin bütün stixial enerjisini özünə akkumulyasiya edərək, superetnos səviyyəsinə qalxmış, Avropa və Asiyada tarixin gedişatının siyasi, inzibati, mədəni harmoniyasını müəyyənləşdirmişdir. Avrasiyanın etnokosmik həyat alqoritmləri daim türk etnosunun enerjisi ilə qidalanmışdır. Bu cəhətdən, qeyri-türk xalqların türk etnosu ilə hər hansı şəkildə tarixi ünsiyyəti onların özlərini bir xalq kimi tükənməz etnokosmik enerji ilə təmin etməsi demək idi. Türk etnosunun Avrasiya materikində varlığı daim ondakı bütün xalqların etnokosmik enerji ilə təminatına xidmət edirdi. Həmin enerji ilə təmas qeyri-türk xalqların milli kosmosuna daimi sabitlik, tarazlıq və harmoniya bəxş etmişdir. Çünki türklər kökü tarixin dərinliklərinə gedib çıxan sosial ədalət, siyasi harmoniya, psixoloji yurdsevərlik keyfiyyətlərinin daşıyıcılarıdır. Məhz bu cəhət türkləri zamanla Avrasiyanın ən qabaqcıl etnoslarından birinə çevirmiş və onlar qurduqları, yaratdıqları dövlətlər və imperiyalarla materikin tarixinə inkarolunmaz siyasi, ictimai, iqtisadi və mədəni düzən vermişlər. Bu anlamda, türklərin etnogenez və qlottogenez tarixi nə qədər təhrif olunsa da, obyektiv tarix kitablarında türk genezisinin kardinal inkişaf xətləri, etnik-siyasi daşıyıcıları, epoxal mərhələləri müəyyənləşdirilmişdir. Əlbəttə, genezis sahəsində zamanla müxtəlif nəzəriyyələr bir-birini inkar etsə də, T.Cəfərovun dərsliyində "türk genezisi" problemi özünün *obyektiv mənzərəsi* ilə inikas olunmuşdur. Burada "obyektiv mənzərə" ifadəsinin kursivlə fərqləndirməyimiz təsadüfi olmayıb, ikicildlik müəllifinin qarşısında monoqrafik deyil, dərslik janrında əsərin yazılması vəzifəsinin durduğuna işarədir. Başqa sözlə, hər bir dərslik aid olduğu elm sahəsinin nailiyyətlərini özündə əks etdirməlidir. Bu cəhətdən, T.Cəfərov gənc, lakin təcrübəli və səriştəli tarixçi kimi, türk tarixşünaslığında mübahisəli görülən məsələlərin də dərslikdə inikas olunmasının optimal modellərini tapmağa nail olmuşdur. Burada heç şübhəsiz ki, müəllif niyyəti də arxa planda olmamaqla, tələbələrin türk etnogenezi məsələsində mövcud baxışlar, konsepsiyalarla tanış olmaq, mübahisəli hesab olunan məsələlərdən xəbərdar olmaq "haqqı" da əsas götürülmüşdür.

İkicildliyin çoxsaylı elmi-pedaqoji məziyyətləri içərisində, yuxarıda da qeyd etdiyimiz kimi, orta əsrlər türk dövlətçilik tarixinin təqdimində "harmoniya modelinin" tapılmasıdır. Yəni əsərin ən fundamental cəhəti T.Cəfərovun türk tarixinin bu gün belə davam edən son dərəcə mübahisəli, ziddiyyətli məqamlarının uğurlu təqdimat konsepsiyasını müəyyənləşdirə bilməsidir. Elə hesab edirik ki, bu məsələ son dərəcə mühümdür və müəllif onun həllində nümunə, örnək ola biləcək metodoloji modeli reallaşdıra bilmişdir.

Məlumdur ki, orta əsrlər türk tarixi amansız ziddiyyətlər, qarşıdurmalarla əlamətdardır. Bu, səbəbsiz deyildir. Orta əsrlər müsəlman Şərqinin tarixi ümumən türk tarixi deməkdir. Türklər öz passionar enerjiləri ilə Asiyanın, Şimali Afrikanın və qismən də Avropanın siyasi xəritəsini dəyişərək, bu nəhəng multukultural coğrafiyanı özlərinin siyasi ritmlərinə köklədilər. Müxtəlif türk dövlət və imperiyalarının qurulması ilə türklər qeyd olunan coğrafiyanın hakim siyasi qüvvəsinə çevrildilər. Əvvəllər qeyri-türk etnosları ilə vuruşan türk hökmdarları "savaş meydanını" onlardan "təmizlədikdən" sonra öz passionar enerjilərini bir-birinin üzərinə yönəltdilər. Bu cəhətdən, orta əsrlər ümumtürk tarixini həm də türk dövlətlərinin bir-biri ilə amansız savaşlarının tarixi də adlandırmaq olar. Müasir türk xalqlarının ictimai şüurunun formalaşmasında böyük rol oynayan həmin savaşlar o dövrün tarixşünaslıq elmində də eyni şəklidə inikas olunmuşdur. Bu cəhətdən, orta əsrlərdə hər bir türk dövlətinin tarixçilik elmi düşmən türk dövlətlərinin mövcudluğunun "ideoloji" inkarı üzərində qurulmuşdur. Bunun əyani nümunəsi Osmanlı-Səfəvi savaşlarının tarix kitablarında necə əks olunmasıdır. Bu qeyd etdiyimiz mühüm məqam orta əsrlər türk tarixi qaynaqlarının ümumi səciyyəvi xüsusiyyəti olmaqla "ümumtürk tarixini" yazmaq istəyən hər bir tarixçinin, o cümlədən T.Cəfərovun qarşısında duran ən çətin metodoloji maneədir. Bu maneəni "aşmaq", onun təsirini "neytrallaşdırmaq" sözü ge-

dən qaynaqlara, tarixçilik irsinə yanaşmada xüsusi konsepsiyanın olmasını tələb edir. Bunsuz "Türk xalqları və dövlətlərinin tarixi" adlı əsəri yazıb ümumtürk oxucusuna qəbul etdirmək mümkün deyildir. Çünki hər bir fərd, o cümlədən tarixçi mənsub olduğu etnik-siyasi ənənənin daşıyıcısıdır. Əsrlər boyu formalaşmış stereotiplər, o cümlədən tarixçilik stereotipləri zamanla milli ictimai şüurun aksiomatik imperativlərinə çevrilir. Bunun nümunələrini biz müasir dövrümüzdə də açıq şəkildə görə bilirik. Məsələn, Azərbaycan və Türkiyə ədəbiyyatşünasları Məhəmməd Füzulini, yaxud Azərbaycan və Türkmənistan ədəbiyyat tarixçiləri Nəsimini "bölə" bilmirlər. Bunun səbəbi həmin ortaq irsə münasibətdə uyğun poetikanın, təhlil konsepsiyasının yoxluğudur. Bütün bu deyilənlərin fonunda xüsusi vurğulamaq istərdik ki, T.Cəfərovun "Türk xalqları və dövlətlərinin tarixi" ikicildliyində orta əsrlər tarixşünaslığından qalma metodoloji ziddiyyətlər aradan qaldırılmış və təkcə Azərbaycanlı oxucuların deyil, ümumtürk oxucusunun etnopsixoloji baxımdan rahatlıqla oxuya biləcəyi fundamental əsər ortaya çıxmışdır. Bu isə son dərəcə mühüm amildir.

T.Cəfərovun "Türk xalqları və dövlətlərinin tarixi" ikicildliyi ilk növbədə dərslikdir, yəni məhz öyrətmək, yaddaşlara, şüurlara etnik-mədəni informasiyalar ötürməkdir. Müəllifin dərsliklə ötürmək, öyrətmək (və müəyyən mənada təlqin etmək) istədiyi informasiya isə istər Azərbaycanlı tələbələrin, istərsə də digər türk xalqları tələbələrinin bilavasitə milli kimliyinin formalaşmasına xidmət edəcəkdir. Bu cəhətdən, Azərbaycanlı tələbənin fəxrlə qəbul etdiyi informasiyanı digər türk xalqları oxucularının da eyni  emosional-psixoloji ovqatda qəbul etməsi ümumtürk tarixinə aid dərsliyin qarşısında duran ən böyük vəzifə və şərt olmuşdur. Birmənalı şəkildə təsdiq etmək olar ki, T.Cəfərov bu çətin, mürəkkəb metodoloji vəzifənin öhdəsindən uğurla gəlmişdir.

İki cilddən ibarət dərsliyin elmi və pedaqoji məziyyətləri haqqında çox danışmaq olar. İndiki halda təqdimat-resenziya janrına uyğun qeyd etmək istərdik ki, dərsliyin birinci cildi "Qədim dövr" və "Orta əsrlər" olmaqla iki bölmədən ibarətdir.

Dərsliyin "Qədim dövr" bölməsi "Türklərin ilkin vətəni sivilizasiya mərkəzlərinin biri kimi" və "Böyük Hun imperiyası" fəsillərini əhatə edir.

Kitabın "Orta əsrlər" bölməsi "Erkən orta əsrlərdə Mərkəzi Asiyanın türk xalqları (quşanlar, eftalitlər, jujanlar)", "Erkən orta əsrlərdə Şərqi Avropada türk dövlətləri (Hun, Avar, Xəzər)", "Erkən orta əsrlərdə Mərkəzi Asiya və Altayın türk dövlətləri (I və II türk xaqanlıqları, Türkeş, Uyğur, Xakas)", "Erkən orta əsrlərdə Şərqi Avropanın türk xalqları (Bulqar, Peçeneq, Qıpçaq)", "Mərkəzi Asiyada ərəb istilaları və İslamın yayılması. Samanilər dövləti", "Orta Şərqin feodal türk dövlətləri (Oğuz, Qəznəli, Səlcuq)", "Mərkəzi Asiyanın ilk müsəlman türk dövlətləri (Xarəzmşahlar, Qaraxanlılar, Qarakitaylar)", "Misir və Yaxın Şərqin ilk müsəlman türk dövlətləri IX-XV əsrlərdə (Tulunoğulları, İxşidlər, Əyyubilər, Məmlüklər)", "Monqol tayfa birliyinin yaranması və imperiyasının yüksəlişi", "Anadolu bəylikləri", "Mərkəzi Asiya və Şərqi Avropa monqol yürüşləri və hakimiyyəti dövründə (Cağatay Ulusu, Hülakü Ulusu, Cuçu Ulusu)", "Osmanlı imperatorluğu", "Volqaboyu və Sibirin türk xanlıqları (Krım, Qazan, Həştərxan və Sibir xalqları. Noqay odası)", "Mərkəzi Asiya, Orta Şərq və Hindistanın türk imperiyaları XIV-XVIII əsrlərdə (Teymur, Şeybanlı, Babur)" kimi fəsillərdən ibarətdir.

İkicildliyin ikinci cildi "Türk xalqları və dövlətlərinin yeni tarixi" və "Türk xalqları və dövlətlərinin müasir tarixi" kimi iki bölmədən ibarətdir. Birinci bölmə "Mərkəzi Asiya xanlıqları (Qazax, Buxara, Xivə, Kokand) və onların Çar Rusiyası tərəfindən işğalı", "Volqaboyu, Sibir, Altay və Uzaq Şərqin türk xalqları XIX-XX əsrin əvvəllərində", "Şərqi Türküstan türklərinin milli azadlıq mübarizəsi (XIX-XXI əsrin əvvəlləri)" kimi fəsilləri əhatə edir. İkinci bölmə isə "Rusiya və SSRİ-nin türk xalqları XX əsrin birinci yarısında (1900-1945-ci illər)", "SSRİ-nin türk xalqları XX əsrin II yarısında (1946-1991-ci illər)", "SSRİ-nin süqutu. Müstəqil türk dövlətlərinin yaranması və inkişafı (1991-2024-cü illər)", "Türk xalqlarının mədəniyyəti" kimi fəsillərdən ibarətdir.

Göründüyü kimi ikicildlik məzmunu, mündəricəsi və xronoloji modeli baxımından kifayət qədər mürəkkəb, əhatəli quruluşa malikdir. Burada *"türk xalqları və dövlətlərinin tarixi" konsepti* həm diaxron, həm də sinxron strukturu baxımından dolğun şəkildə əhatə olunmuşdur.

İkicildlik zəngin tarixi mənbələr və tədqiqatlar əsasında yazılmışdır. Əsərin dili aydın, oxunaqlı olduğu üçün onda təqdim olunmuş informasiyanın səlis şəkildə qavranmasına şərait yaradır.

Şübhəsiz ki, türklərin saysız-hesabsız hadisələrlə zəngin olan tarixini bir əsərdə ümumiləşdirmək son dərəcə çətin məsələdir və burada müəyyən çatışmazlıqların olması da mümkündür. Ancaq açıqfikirli olması, obyektiv mövqeyi, konstruktiv fikirlərə sağlam yanaşması ilə fərqlənən T.Cəfərovun bu əsərinin tarixçi ictimaiyyətin reaksiyaları ilə də gələcəkdə daha da təkmilləşdirəcəyinə və ikicildliyin təkcə Azərbaycanın deyil, ümumən, digər türk xalqları gəncliyinin də milli kimliyinin formalaşmasında böyük rol oynayacağına inanırıq.